Azərbaycan ordusu.- 2020.- 13 noyabr. S. 8.

Zəfər tarixi yazır Azərbaycan əsgəri!

Gözünüz aydın olsun,
ay ellər, ay obalar,
Əsir torpaqlarımız
bir-bir qayıdır geri.
İndi dünya görür ki,
oğul doğur analar,
Hər birində tarixin
yenilməyən hünəri.

Sona yetir ellərin
otuz illik həsrəti,
Məğlubiyyət deməkdi
düşmənlərin heyrəti.
Qələbə bayrağıdı
Qarabağ məhəbbəti,
Birləşdirib xalqımı,
gözləyirik zəfəri.

Qəlbində Vətən eşqi
yanan hər can sevinir,
Sıxılcımdan qurtaran
dövr, zaman sevinir,
Dağlar-daşlar dikəlir,
Azərbaycan sevinir,
Zəfər tarixi yazır
Azərbaycan əsgəri!

Aybəniz KÜRƏKÇAYLI